



**Jiddu KRİŞNAMURTİ**

Unutmayın ki, tənha deyilsiniz və heç bir zaman da olmadınız...

***

Sınaqlardan keçməklə həyatın bütün mənasını qavrayacağınızımı zənn edirsiniz?

***

İnsanın içində bütün dünya var və əgər necə baxıb öyrənmək gərək olduğunu bilirsənsə, qapı orada və açar əlindədir. Yer üzündə səndən başqa heç kimsə nə sana o açarı verə bilər, nə də o qapını aça bilər.

***

Ölümü özünə dərd edən yalnızca insanlardır.

***

Özünü tanımaq müdrikliyin başlanğıcıdır. Kainatın sirri özünü tanımaqdadır.

***

Həyatdan qorxduğumuz müddətcə ölümdən qorxmağa davam edəcəyik.

***

İnsan yalnız azad olduğu zaman həqiqəti kəşf edə bilər.

***

Atomu parçalaya bildiyi halda, qəlbində sevgi olmayan bir adam canavara dönür.

***

Biz necəyiksə, dünya da elədir.

***

Məsələ Tanrının olub -olmamağı deyil, O-na necə qovuşa biləcəyimizdir.

***

Bizi yoxsullaşdıran şeylərdən biri düşünməyi, mühakimə yürütməyi tərk etmiş olmağımızdır.

***

Həqiqət uzaqda deyil. Şayəd necə baxmaq gərək olduğunu bilsəniz, görərsiniz ki, elə öz yanınızdadır.

***

Keçmiş, bir də gələcək var və bizlər də bu ikisi arasında həbsdəyik.

***

Bu dünyada yaşamaq üçün bir belə çapalamağa gərək varmı?

***

Nəylə savaşıramsa, ona həyat verirəm.

***

İnsanı düzgün fəaliyyətə sövq edən sevgidir. Sevgi dünyaya nizam gətirir. İmkan verin də sevgi istədiyini eləsin...

***

Diqqət eləsəniz, azadlığın hüdudlarının gündən-günə daraldığını görəcəksiniz... Sivilizasiya yüksəldikcə azadlıq da azalır.

***

Bu dünyada nə qədər çox inkişaf edириksə-edək, göy üzündə nə qədər uzaqlara gediriksə- gedək, Aya, Veneraya çataq, yenə də çoxumuzun yaşayışı dayaz və bəsit…

***

Günlük həyatımızın səthi olduğunu anlayınca ondan qaçmağa çalışırıq. Zehinlərimizi qurama fəlsəfələrlə doldururuq, halbuki bütün bunlar özü özünü uyutmaqdır.

***

Bir belə ağır xəstəlikli cəmiyyətə uyğunlaşmağa heç hansı sağlamlığın gücü yetməz.

***

Xoşbəxtlik – arxasınca düşüb qovacağın bir şey deyil; o gələr, amma onu axtarsanız, sizdən qaçar.

***

Azadlıq üçün insanın içində sevgi olmalıdır, sevgi olmazsa, azadlıq hər hansı dəyərdən məhrum bir quru sözdən başqa heç nə deyil.

***

Sevmək bir qarşılıq gözləməməkdir. Sevdiyiniz zaman nəsə verdiyinizi ağlınızın ucundan belə keçirməməlisiniz.



**Alber KAMYU**

Bir insanın təkbaşına xoşbəxt olmağı utanılacaq haldır.

***

Bir ölkəni tanımaq istəyirsinizsə, o ölkədə insanların necə öldüyünə baxın.

***

Amal uğrunda ölmək – amala layiq olmağın tək yoludur.

***

Dünya aydınlıq olsaydı, sənət olmazdı.

***

Edam cəzasını ləğv etməyəcək bir inqilab naminə ölməyə dəyməz.

***

Əgər Tanrı olmasaydı, bir insan müqəddəs ola bilərdimi?!

***

Freydin ...əzablar içindəki bəşəriyyətə heç ürəyi yanmırdı.

***

Gözləməyin məhşər gününü: o gəlib artıq və indi hər gələn gün məhşərdir.

***

Heç nə böyüklük qədər sadə deyil, çünki sadə olmaq bir az da böyük olmaqdır.

***

Həqiqət də işıq kimi kor eləyir gözləri.

***

Həqiqət hətta onu üzə çıxaran üçün belə qəbuledilməzdir.

***

İdrakın ilk işi – gerçəyi yalandan ayırd etməkdir.

***

İnsan – özü olmaqdan qorxan yeganə varlıqdır.

***

İnsanı müdafiəyə qalxıram, çünki yıxıldığını gördüm.

***

İnsanın hər gün gördüyü ən yaxşı iş intihar etməmək qərarına gəlməyidir.

***

İyrənc olur yazıçının yaşamadıqlarından yazmağı, ya danışmağı...

***

Qorxaqların əhatəsində ikən insan özün tənhalıqda hiss edər.

***

Nə Faust, nə Don Kixot bir-birin yenməkçün yaradılmayıb və sənət dünyaya pislik üçün icad edilməyib.

***

Ölüm qorxusunu dəf etmədikcə insançün azadlıq yoxdur.



**Çarlz BUKOVSKİ**

Dostumsansa, yanımda, düşmənimsənsə, qarşımda ol. Ortada bir yerdəsənsə, məndən uzaq ol...

***

İntellektual – sadə bir şeyi qarmaqarışıq söyləyən adamdır.

***

Boş insanlarla içi dolu xəyallar qura bilməzsiniz.

***

Xoşbəxt olmadığın biriylə xoşbəxt görünməyə çalışma; olan xoşbəxtliyə olur.

***

Unutma; eyni dildə danışanlar deyil, eyni duyğunu paylaşanlar anlaşa bilir.

***

Anladım ki, həyatında birinin olmamağı deyil, birinin həyatında ola bilməməkmiş tənhalıq.

***

Əgər iki adam arasında qalıbsınızsa, ikincini seçin; çünki birincini həqiqətən sevsəydiniz, ikinci heç olmazdı.

***

Bir qaplanı tutub qəfəsə qoya bilərsiniz, amma onu sındırdığınıza əsla əmin ola bilməzsiniz. İnsanlarla daha asandır.

***

Sizə zamanını ayırmayan birinə əsla özünüzü xərcləməyin.

***

Hey qələbəlik axtaranlardan uzaq olun; təkbaşına onlar bir heçdir.

***

Xoşbəxt insanlar hər şeyin ən yaxşısına sahib olanlar deyil, sahib olduqlarını itirməyəcək qədər çox sevənlərdir.

***

Yaşamağı öyrənməkçün bir neçə dəfə ölmək gərək.

***

Kürəyindən vurana qızma, güvənib ona arxa çevirən sənsən. Arxanca danışandan da küsmə, onu adam yerinə qoyan yenə sənsən.

***

Yalnız olmaq yanlış yerdə və yanlış bir qəlbdə olmaqdan yaxşıdır.

***

Afrikaya dərman göndərməyi qərara almışdıq, ancaq hamısının üzərinə yazılmışdı: “toxqarına”.



**Lion FEYXTVANGER**

Uca Varlığa ibadətin ən yaxşı yolu – O-nun xəlq etdiklərinə xoş rəftar göstərməkdir...

***

Bir-birini anlamamaq dostları düşmən elər.

***

Böyük ürəkdə hər vaxt çoxlu boş yer də olur.

***
Danışmağı öyrənməkçün insana ikicə il gərəkdir, dilini dinc saxlaya bilməyi üçünsə altmış il...
***
İnsan yalnız öz gücünə inandığı yerdə nəyə isə nail olur.
***
İztirab ancaq güclülərə güc verir, gücsüzlərinsə gücünü alır.
***
Kim idrakın tərəfində olacaqsa, iztirab çəkməyə məhkumdur.
***
Kim ki qapının o üzündə pusur, özü haqda yaxşı heç nə eşitməz.
***
Kim köhnə zehniyyətdən qurtulubsa, başa düşülməyəcəyinə hazır olmalıdır.
* * *
Nə qədər lənətlər yağdırsan belə, həyat onu yaşamağa dəyər.
* * *
Rahatlıq ardınca qaçan, azadlığından olar.
* * *
Sənə əbəs yerə həmişə demirdim ki, əliaçıqlıq simiclikdən daha qazanclıdır.
* * *
Sənətkar həqiqətlə gözəlliyi birləşdirməyi bacarmalıdır.
* * *
Sözün köməyi ilə istənilən əfsanəyə həyat vermək mümkündür.
* * *
Uçmağı bacaran kəs gəzməyi bacarmaya da bilər.
* * *
Tarixin gedişatı göstərdi ki, qan axıtmadan insanlığa insanlıq aşılamaq olmur.
* * *
Yolun tamam etməyincə kimsəni mühakimə etməyə qalxışmayın.



**Mark TVEN**

Dərdi təkbaşına çəkmək olar, amma sevinci bütünlüklə yaşamaq üçün gərək onu başqalarıyla bölüşəsən.
* * *
Böyük adamlara baxarkən hiss eləyirik ki, elə özümüz də onlar kimi ola bilərmişik.
* * *
Heç kim daim həqiqət söyləyən biriylə yaşaya bilməzdi, Allaha şükürlər olsun ki, bizlərdən heç birimizçün belə təhlükə yoxdur.
* * *
Heç vaxt həqiqəti layiq olmayan adamlara deməyəsən.
* * *
Həmişə doğrunu söylə, onda heç nəyi yadda saxlamaq məcburiyyətində də qalmazsan.
* * *
Həyatında iki ən mühüm gün var: dünyaya gəldiyin və nə üçün gəldiyini anladığın gün...
* * *
Xeyirxahlıq elədir ki, onu kar eşidə və kor da görə bilər.
* * *
Xəyallarınızı qovalamayın, çünki onlar getdimi, bəlkə, siz qalarsınız, ancaq hesab edin ki, artıq yaşamırsınız.

* * *

Günəşin nə vecinə – işıldaquş ona pərəstiş eləyir, ya eləmir.

* * *

Kitab oxumayanın oxumaq bilməyəndən bir elə üstünlüyü yoxdur.

* * *

Məfusail 969 il yaşadı. Siz, əziz oğlanlar və qızlar, üzünüzə gələn onca ildə Məfusailin bütün həyatı boyu gördüyündən də çoxunu görəcəksiniz.

* * *

Mən bir xoş söz ilə iki ayacan yaşaya bilərəm.

* * *

On dörd yaşımda atam elə sərsəriydi, ona çətinliklə dözürdüm; ancaq iyirmi bir yaşım olanda mat qaldım ki, bu ixtiyar axır yeddi ildə nə qədər ağıllanıbmış.

* * *

Ömrü boyu hər kəsin qapısını xoşbəxtlik bir yol döyür, ancaq yaxındakı aş evinə getdiyindən qapısının döyüldüyünü eşidən olmur.



**Herman HESSE**

...Mən bilməmişəm, inanclı olmaq elə sağlam və sevincli olmağın özüymüş...

***

Təbiətə yaxın olduqca Tanrının sədasını da duyursan...

***

Təhlükəsiz yolla bir tək zəifləri göndərirlər.

***

Dünya zövqləri və dünya malının insana xeyir gətirməyəcəyini hələ uşaq ikən öyrəndim.

***

Hər insanın yeganə gerçək bir işi var: özünə aparan yolu tapmaq...

***

Kimsə öz içində yaşatmadıqca başqasının ruhundakı titrəyişi anlaya bilməz.

***

Bir ata övladına burnunu, gözlərini, hətta ağlını irsən ötürə bilir, amma ruhunu verəmməz; ruh hər insanda yenidir.

***

Yaşamaq həvəsi çoxdan sönmüş bir adama dünyanın heç hansı təbibi əlac eləyə bilməz.

***

Dinləməyi bacaran insan o qədər azdır ki!..

***

...Musiqi haqda yalnız dünyanın mənasını dərk etmiş bir insanla danışmaq olar...

***

Sağlam insan demək – duyğu və düşüncələrini açıqca ifadə edən insan deməkdir. İfadə edən deyirəm, gizlədən deyil.

***

Sən həddən ziyadə çox axtarırsan, elə bu hədsiz axtarışların üzündən də çatdırıb tapa bilmirsən...

***

İçində kitablar olmayan bir ev – yerinə nə qədər qiymətli xalça sərilə, divarları nə qədər bahalı rəsmlərlə bəzədilə,
yenə də yoxsuldur ki, yoxsul.

*Toplayan, tərcümə və tərtib edən:*
**Cəlal MƏMMƏDOV**